# Vergilər naziri Qəbələ şəhərində vətəndaşları qəbul edib



İyulun 14-də vergilər naziri Mikayıl Cabbarov Qəbələ şəhərində 10 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında vətəndaşları qəbul edib.

Qəbulda Qəbələ, İsmayıllı, Oğuz, Zaqatala, Balakən və Qax rayonlarının sakinləri iştirak edib.

Vətəndaşlar əsasən, yaranmış vergi borcları, vergi orqanlarında işə bərpa, vergi inzibatçılığı sahəsində qarşılaşdıqları məsələlərlə əlaqədar müraciət ediblər.

Vergilər naziri tərəfindən vətəndaşların müraciətləri dinlənilib. Əksər məsələlər yerindəcə həllini tapıb, bir sıra müraciətlərlə bağlı nazirliyin struktur bölmələrinə tapşırıqlar verilib.

**“Qəbələ”**

# Turist axınının artırılması istiqamətində müvafiq tədbirlər görülür

Ümumi sahəsi 420 hektar olan Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda qədim Qəbələ şəhərinin qalıqları yerləşir. Ərazi 1976-cı ildə dövlət qoruğu elan olunub.

Son illər Azərbaycan alimlərinin koreyalı mütəxəssislərlə birgə apardıqları arxeoloji tədqiqatlar və qazıntılar nəticəsində Qəbələnin qaranlıq tarixinin açılmamış yeni səhifələri ortaya çıxıb. Arxeoloji qazıntılar əsasən Qəbələnin antik şəhər yeri, Səlbir və Qala ərazilərində aparılır. Qəbələ Arxeoloji Mərkəzində mühafizə olunan eksponatlar, qazıntılar zamanı əldə olunan yeni maddi mədəniyyət nümunələri mərkəzin müasir avadanlıqlarla təchiz edilmiş laboratoriyalarında bərpa olunur.

Qoruğun fəaliyyətinin daha da gücləndirilməsi, turist axınının artırılması istiqamətində mərkəzin rəhbərliyi tərəfindən müvafiq tədbirlər görülür.

**Anar RÜSTƏMLİ.**

# Bunud kəndində görüş-qəbul keçirilib

***Qəbələ rayonunda əhalinin problemlərinin yerində həlli məqsədilə rayon icra hakimiyyəti başçısının sakinlərlə mütəmadi səyyar görüşləri keçirilir, onların təklif və rəyləri dinlənilir, qarşılaşdıqları çətinliklərin aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülür.***

İyulun 24-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Bunud kəndində növbəti səyyar görüş-qəbulu keçirilib. Görüş-qəbulda rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.





Görüşdə giriş nitqi ilə çıxış edən Səbuhi Abdullayev ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, mövcud ictimai-siyasi sabitliyindən, həmçinin Prezident cənab İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq son illər ölkəmizin hər yerində olduğu kimi Qəbələ rayonunda həyata keçirilən sosial infrastruktur layihələrindən, aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərindən danışıb.

RİH başçısı digər yaşayış məntəqələri kimi Bunud kəndində də kəndarası yolların qaydaya salındığını, ərazidə yeni artezian quyusunun qazıldığını, körpü tikildiyini, suvarma kanalının təmir olunduğunu, iki ədəd elektrik transformatorunun qoyulduğunu, yaşayış məntəqəsinin dayanıqlı rabitə, fasiləsiz işıqla təchiz edildiyini diqqətə çatdırıb.

Səbuhi Abdullayev çıxışının sonunda rayonumuzun bütün yaşayış məntəqələrində, eləcə də Bunud kəndində əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərin, infrastruktur layihələrinin davam etdiriləcəyini bildirib.

Sonra vətəndaşların müraciətləri dinlənilib. Onlar dövlət tərəfindən əhaliyə göstərilən diqqət və qayğıya, kənddə problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərə görə ölkə rəhbərinə öz minnətdarlıqlarını bildiriblər.

Qəbulda irəli sürülən təkliflərin icrası ilə əlaqədar rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən aidiyyəti qurumlara tapşırıqlar verilib.

**“Qəbələ”**

# Respublika çempionatına yekun vurulub

İyulun 12-də Fövqəladə Hallar Nazirliyinin İdman-sağlamlıq klubunun və FHN İşçilərinin həmkarlar ittifaqının birgə təşkilatçılığı ilə Mülki Müdafiə Qoşunlarının Qəbələ rayonundakı “N” saylı hərbi hissəsində keçirilən və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunan beşnövçülük üzrə respublika çempionatına yekun vurulub.

Yarışda nazirliyin müxtəlif qurumlarını təmsil edən 16 komandanın tərkibində 80 idmançı mübarizə aparıb.

İdmançılar iyulun 9-dan 12-dək davam edən yarışda maneələr zolağı, turnikdə güc çalışmaları, atıcılıq, xilasetmə üzgüçülüyü və dağadırmanma üzrə bacarıqlarını nümayiş etdiriblər. Əvvəlki illərdə ölkəmizdə bu yarışlar iki mərhələ üzrə keçirilsə də, artıq iki ildir ölkə çempionatının proqramına dağadırmanma, turnikdə güc çalışmaları və maneələr zolağı növləri də əlavə olunub. Bu idman növləri iştirakçılardan daha çətin şəraitdə güc və bacarıq nümayiş etdirmək, gərgin mübarizə aparmaq tələb edir.



Maraqlı idman mübarizəsi şəraitində keçən yarışın şəxsi birincilik mərhələsində FHN-in İdman-sağlamlıq klubunun əməkdaşı Rəşad Kəsəmənli qızıl, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin təmsilçisi Məmməd Cəfərzadə gümüş, Dövlət Yanğından Mühafizə Xidmətinin nümayəndəsi Orxan İsgəndərov bürünc medal qazanıblar.

Komanda hesabında isə FHN Akademiyasının təmsilçiləri birinci, Kiçik Həcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin komandası ikinci, Mülki Müdafiə Qoşunlarının nümayəndələri üçüncü yeri tutublar.

FHN işçilərinin həmkarlar ittifaqının sədri Mehman İsmayılov və FHN-in İdman-sağlamlıq klubunun rəisi, polkovnik Füzuli Musayev mükafatlandırma mərasimində çıxış edərək qaliblərə təbriklərini çatdırıblar. Çıxış edənlər Azərbaycanda hər il keçirilən və böyük marağa səbəb olan bu yarışın əhəmiyyətindən, idmanın inkişafı istiqamətində görülən işlərdən, FHN əməkdaşlarının uğurlarından danışıblar.




Sonda qaliblərə diplom, kubok, medallar və qiymətli hədiyyələr təqdim edilib.

**“Qəbələ”**

# İyulun 30-dan avqustun 8-dək keçiriləcək X Qəbələ Beynəlxalq Musiqi Festivalının proqramı açıqlanıb

AZƏRTAC festivalın saytına istinadla xəbər verir ki, iyulun 30-da “Gənclərə dəstək” layihəsi çərçivəsində kamera konserti və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası tələbələrinin simfonik orkestrinin çıxışı olacaq. Festivalın iyulun 31-də təqdim ediləcək kamera konsertlərində Xalq Artisti, Fərhad Bədəlbəyli (piano), Olqa Yermakova (piano), Dmitri Yablonski (violonçel), Janna Qandelman (skripka), Şükür Səmədov (klarnet), Annelle Qreqory (skripka), Oleq Xudyakov (piano), Andrey Varlamov (qaboy), Afanasi Stupakov-Konev (skripka), Çinarə Əzimova (soprano), Rəfiqə Quluzadə (piano) və Aleksandr Doronin (piano) çıxış edəcəklər. Axşam keçiriləcək rəsmi açılış konsertində isə fortepianoda Xalq artistləri Murad Adıgözəlzadə və Yeganə Axundova çıxış edəcəklər.

Orkestri Əməkdar Artist Fuad İbrahimov idarə edəcək.

Avqustun 1-də Azərbaycan və xarici musiqiçilərin iştirakı ilə kamera musiqisi axşamı və Kuba septetinin konserti olacaq.

Avqustun 2-də “Multipiano” musiqi gecəsində Tomas Lev, Berenika Qliksman, Nimrod Natanel Mayri-Haftel, Almoq Seqal, Ayal-Peleq Pelç, muğam gecəsində xanəndələr Abgül Mirzəliyev, Kamilə Nəbiyeva, Səbinə Ərəbli, habelə, Sahib Paşazadə (tar), Toğrul Əsədullayev (kamança), Emin Cəbrayılov (nağara), Çinarə Heydərova (kanon), Azad Əliməmmədov (balaban), Şəfa Kərimov (ud) çıxış edəcəklər.

Avqustun 3-də “Bakı Kamera Orkestri”nin, Budapeşt Qaraçı Qrupunun və “Qaytağı” ansamblının konsertləri olacaq.

Avqustun 4-də kamera konsertləri ilə yanaşı, Yerusəlim Simfonik Orkestrinin konserti olacaq. Orkestrə Dmitri Yablonski dirijorluq edəcək. Konsertdə Eduard Vulfson (skripka), Səidə Tağızadə (piano) və Aleksey Miltıx çıxış edəcəklər.

İsrailli musiqiçilər festival çərçivəsində avqustun 5-də Şəkidə çıxış edəcəklər. Həmin gün Qəbələdə Qara Qarayevin 100 illik yubileyinə həsr edilən konsert olacaq. Avqustun 6-da Yerusəlim Simfonik Orkestrinə Mixail Xoxlov dirijorluq edəcək. Pianoda Oksana Yablonskaya və Toğrul Hüseynli çıxış edəcəklər. Festivalın sonuncu günü - avqustun 7-də azərbaycanlı musiqiçilərin iştirakı ilə konsert olacaq, bağlanış mərasimində isə Yerusəlim Simfonik Orkestri çıxış edəcək.